HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

*30 iyun 2017-cı il*
*№012 (50)*

*yeni_yol@mail.ru* / İCTİMAİ QƏZET / "იენი იოლი" საზოგადოებრივი გაზეთი / *qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur*

## BAKI-TBİLİSİ-QARS DƏMİRYOLU AVQUSTDA HAZIR OLACAQ



Türkiyənin gəmiçilik və kommunikasiya naziri Ahmet Arslan Bakı-Tbilisi-Qars dəmiryolunun cari ilin avqustunda istismara hazır olacağını bildirib.

Ahmet Arslan Türkiyənin öz ərzisində layihənin reallaşdırılmasını tamamilə başa çatdırdığını vurğulayıb. O, qeyd edib ki, BTQ dəmiryolu dəhlizinin gürcü sahəsində sürüşmənin baş verməsi problem yaradıb.

Bir qədər əvvəl Türkiyənin Gəmiçilik və Kommunikasiya Nazirliyində dəmiryolunun dəqiq açılış tarixinin müəyyənləşdirilməsi üçün danışıqlar getdiyi bildirililmişdi. Nazirlikdə Azərbaycan, Gürcüstan və Türkiyə dövlət başçılarının BTQ-nin açılış mərasimində iştirak edəcəklərini istisna etməyiblər.

## QARSDA BAKI-TBİLİSİ-QARS DİMİRYOLUNUN İŞƏ SALINMASI MƏSƏLƏSİ MÜZAKİRƏ EDİLƏCƏK




İyulun 5-də Qarsda Bakı-Tbilisi-Qars layihəsinin reallaşdırılmasının müzakirə edilməsi üçün Azərbaycan, Gürcüstan və Türkiyə dəmiryol idarələrinin görüşü olacaq. Məlumatı "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov verib.

Onun sözlərinə görə, tərəflər layihənin reallaşdırılmasının vəziyyətini qiymətləndirəcək, işin gedişini müzakirə edəcəklər.

Qurbanov deyib: "Bu görüşün nəticəsinə görə BTQ layihəsinin işə salınması tarixi haqqında bəyanat veriləcək. Layihənin bu il işə salınacağı gözlənilir".

BTQ dəmiryolu Azərbaycan, Gürcüstan və Türkiyə dövlətlərarası razılaşması əsasında inşa olunur. BTQ vasitəsilə ildə 17 milyon ton yük daşınması nəzərdə tutulur. İlkin mərhələdə bu göstəricinin bir milyon sərnişin və 6,5 milyon ton yük səviyyəsində olacağı proqnozlaşdırılır.

ÖZÜNÜ ÇÜRÜMƏYƏ VADAR EDƏN CƏMİYYƏT 2

ÜMİDSİZƏ ÜMİD OL 3

"QƏTƏR BÖHRANI"NIN AMERİKANSAYAĞI HƏLLİ 4

MÜQAYİSƏ ÜÇÜN MÖVZU 5

GÜRCÜSTAN VƏTƏNDAŞLIĞI ƏLDƏ ETMİŞ ƏCNƏBİLƏRİN DURUMUNA RƏQƏMLƏRİN DİLİ İLƏ ÖTƏRİ BAXIŞ 6

İSLAM KONFRANSI TƏŞKİLATI VƏ AZƏRBAYCAN 7

## GÜRCÜSTANIN BAŞ NAZİRİ ÖLKƏ MÜSƏLMANLARINA İFTAR SÜFRƏSİ TƏŞKİL EDİB



İyunun 23-də ölkənin Baş naziri Giorgi Kvirikaşvili müsəlmanlarla iftar süfrəsi ətrafında görüşüb.

Məclis iştirakşılarını və ölkə müsəlmanlarını mübarək Ramazan ayı və qarşıdan gələn Ramazan bayramı münasibəti ilə təbrik edib. Hökümət başçısı bu müqəddəs ayın Tanrıya qayıdış, paklıq, xeyirxahlıq və insanpərvərlik ayı olduğunu vurğulayıb. O, çıxışı zamanı deyib: "Ölkə vətəndaşları fərqli inanc, din və milliyyətə mənsub olmalarına baxmayaraq, bir güc kimi ortaq sərvətimiz olan ölkəmizin inkişafında xidmətlər göstərib və göstərirlər. Hakimiyyətdə olduğumuz illərdə başqa dinlərlə birgə müsəlmanlara göstərilən diqqət və qayğını artırdığımıza görə mən fəxr hissi duyuram. Bizim fərqli dinimiz olsa da, çoxdinlilik və çoxetniklik baxımından zəngin dövlətimiz var. Tarix boyu ölkə vətəndaşları din və vicdan azadlığına söykənərək, qarşılıqlı hörmət və tolerantlıq çərçivəsində birgə yaşayırlar".

İftar axşamında Dini məsələlər üzrə dövlət Agentliyinin sədri Zaza Vaşakmadze, Gürcüstan Müsəlmanlar İdarəsinin şeyxi Ramin İgidov, Qərbi Gürcüstan müftisi Beqlar Kamaşidze, Şərqi Gürcüstan müftisi Yasin Əliyev çıxış edərək Ramazan ayı münasibətilə müsəlmanlara göstərilən diqqət və qayğıya görə baş nazirə minnətdarlıqlarını bildiriblər. Ölkənin rifahı, ərazi bütövlüyü, xoş gələcəyi üçün dua edib, dünyaya sülh, əmin-amanlıq arzuladılar. Qarşıdan gələn Ramazan bayramı münasibəti ilə ölkə və dünya müsəlmanlarını təbrik ediblər.

Qeyd edək ki, tədbirdə din, ictimaiyyət xadimləri, dövlət rəsmiləri və müsəlman ölkələrinin səfirliklərinin nümayəndələri iştirak ediblər.

## İLHAM ƏLİYEV GÜRCÜSTAN BAŞ NAZİRİNİN MÜAVİNİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Gürcüstan baş nazirinin müavini, təhsil və elm naziri Aleksandr Cecelavanı qəbul edib.

ADA Universitetində olduğu barədə məlumat verən Aleksandr Cecelava bu təhsil müəssisəsinin onda dərin təəssürat yaratdığını, Bakı Ali Neft Məktəbinin fəaliyyətinin də maraq doğurduğunu vurğulayıb. Qonaq Azərbaycan və Gürcüstan arasında təhsil sahəsində əməkdaşlığı digər sahələrdə mövcud olan ikitərəfli əməkdaşlıq səviyyəsinə yüksəltmək üçün birgə səylərin gücləndirilməsinin vacibliyini qeyd edib.

Prezident İlham Əliyev ADA Universitetinin, Bakı Ali Neft Məktəbinin, eləcə də ölkənin digər ali təhsil müəssisələrinin yüksək səviyyəli təhsil sistemi yaradılması üçün mühüm işlər gördüklərini vurğulayıb. Dövlət başçısı iki ölkənin təhsil sahəsində ikitərəfli birgə layihələr gerçəkləşdirməsinin vacibliyini qeyd edib.

Görüşdə ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığın perspektivləri, o cümlədən də tələbə mübadiləsi və digər məsələlər müzakirə olunub.

## YER KÜRƏSİNİN ƏHALİSİ 2100-CÜ İLDƏ 11 MİLYARDA ÇATACAQ

BMT-nin dərc olunmuş araşdırmasında Yer kürəsi əhalisinin sayının 2050-ci ildə təqribən 10 milyard, 2100-cü ildə isə 11 milyarda çatacağı qeyd olunur.

Hal-hazırda dünya əhalisinin sayı 7,4 milyard nəfərdir.

Məlumatda bildirilir: "Proqnozlara görə, növbəti 13 il ərzində dünya əhalisinin sayı bir milyarddan çox artaraq, 2030-cu ildə 8,6 milyarda, 2050-ci ildə 9,8 milyarda və 2100-cü ildə 11,2 milyarda çatacaq".

Məlumatda əvvəlki dövrlərə nisbətən Yer əhalisinin bir qədər yavaş templə artdığı vurğulanır. Qeyd olunur ki, on il əvvəl əhalinin illik artımı 1,24% təşkil edirdisə, indi bu göstərici 1,10%-dir.

2050-ci ilədək əsas artım Hindistan, Nigeriya, Konqo Demokratik Respublikası, Pakistan, Efiopiya, Tanzaniya, ABŞ, Uqanda və İndoneziyada gözlənilir.



## ÖZÜNÜ ÇÜRÜMƏYƏ VADAR EDƏN CƏMİYYƏT

Afiq MUXTAROĞLU
*amuxtaroglu@mail.ru*

**Cəhənnəmə gedən yoldaşını çox istəyir deyirlər. Niyə belə dediklərini bir azdan bilib içinə yetəcəyik. Hə, nəyi demək istəyirdim, az qala əsas məsələni unudub başqa zaddan danışacaqdım. Nədən ki, yay artıq istisilə, bürküsüylə qapımızın ağzını kəsdirib, bizimki də aran yeri olduğundan adamın bildiyi də qafasından çıxır. Sözümün canı Avropa dəyərləri barədədir. Elə buradaca xatırladım ki, istənilən toplumun yaşamında ürəyəyatan nəsə tapmaq mükündür və istənilən toplumun fəaliyyətində – istər Avropa olsun, istər də başqa bir yer – xoşagəlməz nəyisə fərqləndirmək mümkünsüz deyil.**

Bəllidir ki, xeyli vaxtdır ölkəmizin əsas qanununa düzəlişlərlə bağlı iqtidar-müxalifət qarşıdurması yaşanmaqdadır. Prezidentimiz bu şəkildə konstitusiyanın müzakirəsində iştirak etməyəcəyini bəyan edib. Qeyri-hökumət və hüquq müdafiə təşkilatları məsələnin bu şəkildə həll olunmasına mənfi münasibət sərgiləyiblər. Biz məsələnin çözülməsilə ilgili mübahisələri, dartışmaları bir tərəfə qoyub, bizi ilgiləndirən bir məqamla bağlı fikirlərimizi ortaya qoymağı düşünürük. Siyasi-iqtisadi müstəvidə konstitusiyamıza ediləcək istənilən dəyişiklik bir vətəndaş kimi hər birimizi düşündürməlidir. Bu, öz yerində. Əsas qanununumuza ediləcək düzəlişlərdən biri də cinsi azlıqların nümayəndələrinə haqqın tanınması ilə bağlıdır. Mən bu azlıqların hansı cins və kateqoriyalara bölünməsi üzərində dayanmaq fikrindən çox uzağam. Bəri başdanca deyim ki, konstitusiya düzəlişlərində ölkəmizdə ailə qadın və kişinin birliyi kimi özünə yer alıb və düşünürəm ki, ağlı başında olan hər bir vətəndaş bunu anlayışla qarşılayıb. Qorxumuz onda idi ki, birdən olmadı elə, oldu belə. Nədən ki, ictimai fikrin siyasilərimizi başqa cür düşünməyə və başqa cür siyasi iradə nümayiş etdirməyə yönləndirə biləcəyindən əndişələnirdik.

Digər tərəfdən də Amerika və Avropa amanımızı qırıb bizi inandırmağa çalışır ki, qadının qadınla, kişinin kişilə evlənməsindən gözəl nə ola bilər, əgər siz bu azlıqlara hüquq versəniz, onları qəbul edə bilsəniz Avropa Birliyinə, NATO-ya gedən yolunuzdakı əngəllərdən biri də qalxmış olacaq. Bunu bizə təlqin etmək istəyən potensial tərəfdaşlarımız əməli addımlar atmaqla, əyani nümunələr nümayiş etdirməklə də öz işlərini görməkdədirlər. Misal üçün, 2015-ci ildə Avropanın kiçik bir ölkəsi olan Lüksemburqda eynicinsli nikahlar qanunilədşirildi və dərhal da ölkənin baş naziri Ksavye Bettel öz cinsindən olan belçikalı arxitektor 38 yaşlı Olivye Destene ilə evləndi, əgər buna evlənmək demək mükünsə. Bu da cəhənnəm, yeri gələndə deyərik, evləniblər cəhənnəmə evlənsinlər, qara yola evlənsinlər, can onların, cəhənnəm Tanrının. Onun "arvadı" ilə NATO-nun minsterialında görünməsi və cütlüyün NATO-nun digər başbilənləri tərəfindən qəbul edilməsi başqa gizlinlərdən xəbər verir.

Fransanın gənc prezidenti 39 yaşlı Emmanuel Makronun siyasi karyerası barədə bir kəlmə də olsun laf söyləmədən, onun ailə ilişgiləri haqqında qısaca danışacam. Düzdür, kiminsə özəl həyatına, ailə münasibətlərinə dair fikir söyləmək Avropa dəyərlərinə zidd hesab olunur, amma neyləməli, ələhəzrət faktdan yan keçmək də olmur. Makron Fransada ən çox xanımı ilə bağlı əhvalatla məşhurdur. Orta məktəbdə oxuyarkən müəlliməsi Bricitə aşiq olan yaraşıqlı Makron həmin vaxt Bricitin qızı ilə eyni məktəbdə təhsil alırdı. Valideynləri əvvəlcə Makronun Bricitin qızına vurulduğunu güman etsələr də, həqiqəti öyrənərkən buna etiraz edirlər. Bricitin ailəli, üstəlik Makrondan 25 yaş böyük olması onların eşqini mümkünsüz edirdi. Lakin o, bütün sədləri aşaraq Bricitlə nikaha nail ola bilir. Uşaq istəmədiyini bildirən Makronun hazırda 39, Bricitin isə 63 yaşı var. İndi soruşmaq gərəkir ki, ay müsyö Emmanuel, başına Frəngistanda arvadmı qəhətdir, bu 63 yaşlı qart madamda nə görübsən, onunla ömrünü niyə çürüdürsən.

Bu ay isə qatı açılmamış, qəttəzə bir xəbər gündəmdə bomba kimi partladı. Deməzsənmi, Serbiya prezidenti Aleksandr Vuçiç ölkənin baş naziri postuna təyin edilmiş cinsi azlıqlara mənsub lezbiyan Ana Brnabiçə hökuməti təşkil etmək tapşırığı verib. Bax, bu yerdə deyiblər, "gözlədiyin komanın dibinə zad eləmə".

Gətirdiyim faktlar bu siyasətin gizlinlərindən xəbər vermirmi, torbada pişiyin olmasına bir işarə deyilmi? Bu siyasəti yürüdənlər hamını – avropalını da, asiyalını da – eynicinsli evliliyə həvəsləndirmirlərmi? Oğru yadına daş salmırlarmı? Sən niyə dayanıbsan, kişisənsə kişiylə, qadınsansa qadınla niyə evlənmirsən kimi bir mesaj vermirlərmi? Bir qutu meyvəni bir çürük meyvə çürüdə bildiyi kimi, cəmiyyətin bu çürük meyvələri insan soyunu kəsməkmi niyyətindədirlər? Düşünürəm ki, məhz belədir, həndəsi silsilə ilə artan əhali artımının qarşısının alınması yöntəmlərindən biri Avropa cəmiyyətində eynicinslilərin evləndirilməsidir.

Neçə ölkənin eynicinsli nikahları qanuniləşdirdiyini dəqiqləşdirməyə də ehtiyac qalmır. Dövlət və hökumət başçılarının atdıqları addımlar Avropa cəmiyyətinin çürüməkdə olduğunu yox, artıq çürüdüyünü deməyə əsas verir.

**Belə bir yaşamın konstitusiyamızda əks olunmaması, fikrimcə, cəmiyyətimizin xilas yoldur.**

## NƏRİMAN NƏRİMANOVUN EV MUZEYİ BƏRPA OLUNUB



Gürcüstanda səfərdə olan ARDNŞ-in prezidenti Rövnəq Abdullayev Tbilisidə SOCAR-ın dəstəyi ilə bərpa olunan görkəmli ictimai xadim və yazıçı Nəriman Nərimanovun ev muzeyinin açılışını həyata keçirib. Açılış mərasimində Rövnəq Abdullayevlə birlikdə Gürcüstan mədəniyyət və abidələrin mühafizəsi naziri Mixail Georqadze də iştirak edib. Açılış mərasiminə qatılanlar daha sonra muzeyə baxış keçiriblər. N. Nərimanovun ev muzeyində görkəmli yazıçı və ictimai xadimin həyat və fəaliyyətinə aid maraqlı eksponatlar, onun əlyazmaları və ona ünvanlanan məktublar və yazıçının kitabları, əsərlərinin foto şəkilləri ilə tanış olublar.

Nəriman Nəcəf oğlu Nərimanov 1870-ci il aprelin 14-də Tiflis şəhərində anadan olub. 1890-cı ildə Qori Müəllimlər Seminariyasını bitirib. Görkəmli yazıçının bədii yaradıcılığı və müəllimlik fəaliyyəti Gürcüstanla da bağlı olub. N. Nərimanov 1890-cı ildə Tiflis quberniyasının azərbaycanlıların yaşadığı Borçalı qəzasının Qızılhacılı kəndində pedaqoji fəaliyyətə başlayıb və bədii yaradıcılığını bu kənddə davam etdirib. Marneuli rayonunda N. Nərimanov adına orta məktəb və rayon mərkəzində Mədəniyyət Evi fəaliyyət göstərir.

Tədbirdə Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov, Gürcüstan parlamentinin deputatı Savalan Mirzəyev, SOCAR-ın Gürcüstan nümayəndəliyinin rəhbəri Mahir Məmmədov, Azərbaycanın Batumidəki konsulu Rəşad İsmayılov, Gürcüstanın barışıq və vətəndaş məsələləri üzrə dövlət nazirinin müşaviri Ayaz Məmmədov, Kvemo Kartli bölgə qubernatorunun müavini Zaur Darğallı və digər rəsmi şəxslər, ictimaiyyət nümayəndələri, muzey işçiləri və digər qonaqlar iştirak ediblər.

## GÜRCÜ DİLİ KURSUNUN ŞAGİRDLƏRİ MÜKAFATLANDIRILIBLAR



İyunun 23-də Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının nəzdində fəaliyyət göstərən gürcü dili kursu şagirdlərinin mükafatlandırma mərasimi baş tutub. Qardabanidə, təşkilatın konfrans zalında baş tutan mərasimdə şagirdlərə müvafiq sertifikat və hədiyyələr təqdim edilib.

Kursda təhsil alan şagirdlərin bilik səviyyəsini müəyyənləşdirmək üçün keçirilmiş sınaq yoxlamaları nəticəsində qaliblər aşkar edilmişdir. Sınaq yoxlamalarının gedişində şagirdlərdən Renat İskəndərov ən yaxşı nəticə göstərərək ilin qalibi seçilmiş və müvafiq sertifikat almış, eləcə də təşkilatın xüsusi mükafatına layiq görülmüşdür. İkinci və üçüncü yerlərin qaliblərinə də təşkilatın təsis etdiyi xüsusi mükafatlar verilmişdir. İkinci yeri Elmina Əhmədova, üçüncü yeri isə Ziyəddin Əhmədov tutmuşdur.

Digər şagirdlər də mükafatlandırılmış, onlara da hədiyyələr verilmişdir. Ümumilikdə gürcü dili kursunda bu dilin incəliklərini mənimsəyən 13 şagird sertifikat almağa müvəffəq olmuşdur.

Şagirdlərə mükafatları Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının fəalları Hacı Hacıyev, Elsevər Əhmədov, Binəli İslam oğlu və gürcü dilinin incəliklərini şagirdlərə öyrədən Afayət Əliyeva təqdim etmişlər.

## AYAZ MƏMMƏDOV VƏTƏNDAŞ BƏRABƏRLİYİ VƏ BARIŞIQ MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİNİN MÜŞAVİRİ TƏYİN EDİLDİ

Ayaz Məmmədov Gürcüstanın Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət nazirinin müşaviri təyin edilib.

Bu vəzifəyə təyin edilənədək A. Məmmədov regional vergi müfəttişliyində çalışıb.

Ayaz Məmmədov Kvemo Kartli regionu üzrə işləyəcək. O, İlya Çavçavadze adına Dövlət Universitetinin hüquq fakultəsinin və Zurab Jvaniya adına Dövlət İdarəetmə Məktəbinin məzunudur.

Ayaz Məmmədov ailəlidir, bir oğul atasıdır.

## KRIM TATARLARININ LİDERİ HƏMYERLİMİZİ ÖZÜNƏ KÖMƏKÇİ SEÇDİ

Azərbaycanlı Elşən Cəfərli Ukrayna Ali Radasının üzvü, Krım tatarlarının lideri Mustafa Cəmiloğlunun köməkçisi təyin olunub.

Musavat.com xəbər verir ki, Elşən Cəfərli 1982-ci ildə Gürcüstanın Marneuli rayonunda anadan olub. Elşən Cəfərli Azərbaycan Polis Akademiyasının hüquq fakültəsini fərqlənmə diplomi ilə bitirib. 13 ildir Ukraynada yaşayır və bu ölkədə hüquqşünas kimi fəaliyyət göstərir. O, Ukrayna vətəndaşıdır.

# GÜRCÜSTAN MÜSTƏQİLLİK İLLƏRİNİN ƏN NƏHƏNG SES-İNİ İSTİSMARA VERDİ

Acaristskali çayı üzərində 187 meqavatt gücündə Şuaxevi SES-nın tikintisi başa çatıb. Bu, dövlət müstəqilliyi illərində, eləcə sə son 50 il ərzində tikilmiş ən nəhəng Su Elektrik Stansiyasıdır.

Tikintinin başa çatmasına həsr olunmuş mərasimdə çıxış edən baş nazir Georgi Kvirikaşvili vurğulayıb: "Bizim əsas vəzifəmiz ölkəyə idxal olunan enerji resurslarını özümüzün istehsal etdiyimiz elektrik enerjisi ilə əvəz etməkdən ibarətdir".

Hökumət başçısı SES-in tikintisinə əcnəbi sərmayəçilərin 416 milyon dollar vəsait yatırdıqlarını bildirib.

Şuaxevi SES-dən əlavə, Acaristskali çayı üzərində Koromxeti və Xertvisi stansiyalarının tikilməsi də planlaşdırılır.

Üç stansiyanın ümumi gücü 400 meqavatt, layihənin ümumi dəyəri isə 700 milyon dollar təşkil etməlidir. Tbilisi və beynəlxalq sərmayəçilər arasındakı razılaşmaya əsasən SES-in hasil etdiyi elektrik enerjisi qış aylarında daxili bazarda gerçəkləşdiriləcək, yayda isə ixrac olunacaq. Əsas alıcılardan biri qonşu Türkiyədir.

# GÜRCÜSTANIN HƏR BİR VƏTƏNDAŞI ÖLKƏNİN İLK KÜLƏK ELEKTRİK STANSİYASINDA PAY SAHİBİ OLA BİLƏR



Gürcüstan hökuməti ölkə vətəndaşlarının öz paylarını ala bilmələri üçün "Kartli" Külək Elektrik Stansiyasının aksiyalarını fond birjasına çıxarmaq niyyətindədir. Bu barədə iyunun 22-də hökumətin iclasında Gürcüstanın baş naziri Georgi Kvirikaşvili bəyan edib.

Alternativ enerjinin hökumət üçün əsas prioritet olduğunu və bu istiqamətdə digər addımların atılacağını da vurğulayan Kvirikaşvili deyib: "Bizim həyata keçirdiyimiz layihələrə vətəndaşların qoşulması olduqca vacibdir".

Xatırladaq ki, Gürcüstan Energetika Nazirliyi keçən ilin oktyabrında Şida Kartli regionunda 20,7 MVt gücündə ölkədə ilk "Kartli" KES-i istismara vermişdi. Gələcəkdə onun gücünün 300 MVt-dək artırılması nəzərdə tutulur.

# GÜRCÜSTAN AVROPA BİZNES REYTİNQİNDƏ ÖZ MÖVQEYİNİ YAXŞILAŞDIRIB

Gürcüstan "Biznesin aparılması üçün Avropanın ən yaxşı ölkələri 2017" reytinqində 68,6 balla 46 ölkə arasında 20-ci yeri tutub. Reytinq European Chamber müstəqil qeyri-hökumət təşkilatı tərəfindən tərtib edilib.

2016-cı ildə Gürcüstanın reytinq balı 64,7 olmuşdu, ölkə özünün keçən ilki mövqeyini yaxşılaşdıraraq, dörd pillə irəliləyib.

Hazırda Gürcüstanın göstəricisi regionda ən yaxşıdır və o, özünün yaxın qonşularından öndədir.

Bundan əlavə, Gürcüstan reytinqdə İspaniya, İtaliya, Belarus, Qazaxıstan, Çexiya, Slovakiya, Bolqarıstan, Macarıstan, Yunanıstan və bu kimi Avropa ölkələrini də geridə qoyur.

"Biznesin aparılması üçün Avropanın ən yaxşı ölkələri 2017" reytinqində 87,5 balla Danimarka dalbadal ikinci ildir ki, liderdir. Onun ardınca İsveç (85,6 bal) və Finlandiya (85,4 bal) gəlir.

İkinci ildir ki, 46,5 balla reytinqin sonuncusu Ukrayna olur.

European Chamber-in məlumatları Transparency international beynəlxalq qeyri-hökumət təşkilatının korrupsiyanın qəbulu reytinqinin və Dünya Bankının biznesin aparılmasının sadəliyi üzrə göstəricilərinə əsaslanır.

Dünya Bankının məlumatlarına görə, biznesin aparılmasının sadəliyi reytinqində Gürcüstan 16-cı, korrupsiyanın qəbulu səviyyəsi reytinqində isə 44-cü yeri tutur.

# İSVEÇRƏNİN HAKİMİYYƏT NÜMAYƏNDƏLƏRİ MARNEULİYƏ SƏFƏR EDİBLƏR

İyunun 29-da İsveçrə Xarici İşlər Nazirliyinin Şərqi Avropa və Avrasiya ilə əməkdaşlıq departamentinin rəhbəri Elisabet Fon Kapeların rəhbərlik etdiyi nümayəndə heyəti Marneuliyə səfər edib. Nümayəndə heyəti ilə birlikdə İsveçrənin Gürcüstandakı səfiri Lukas Beqlinger, İsveçrə Əməkdaşlıq Ofisinin bölgə rəhbəri Olivye Burk, Postsovet Ölkələri ilə Münasibətlər Departamentinin rəhbəri Barbara Bion, bölgə rəhbərinin müavini Simone Haberli və Gürcüstandakı İsveçrə Əməkdaşlıq Ofisinin nümayəndələri, BMT İnkşaf proqramının (UNDP) nümayəndələri və "Yaşıl Qafqaz" təşkilatının sədri də Marneuliyə gəlmişdi.

İsveçrəli qonaqların səfəri çərçivəsində işgüzar görüş də baş tutub. Görüşdə icra başçısı Merab Topçişvili qonaqlara bələdiyyə haqqında ətraflı məlumat verib, Marneulidə vətəndaş fəallığı, milli azlıqların problemləri, dövlət strukturlarında çalışanların ixtisaslaşdırılması, bu istiqamətdə həyata keçirilən layihələr və gələcək planlardan söhbət açıb.

Görüşün ikinci hissəsi infrastruktur layihələrin nəzərdən keçirilməsini əhatə edirdi. Səfər çərçivəsində isveçrəli nümayəndələr icra başısı Merab Topçişvili, BMT-nin inkşaf proqramının (UNDP) nümayəndələri ilə birlikdə Alget uşaq bağçasının inşa prosesini nəzərdən keçiriblər.

Nümayəndə heyətinin bölgəyə səfərinin məqsədi İsveçrə tərəfindən həyata keçirilən layihələri nəzərdən keçirmək və bu layihələri həyata keçirən tərəfdaş təşkilatlar ilə görüşməkdən ibarət idi.

Turac İBRAHİMOVA

# ÜMİDSİZƏ ÜMİD OL



Hacı BƏKİROĞLU
*kafkasli@mail.ru*

**Bir hədisi şərifdə Peyğəmbərimiz (s.ə.s):"Necə ki, bir insanın bir üzvü xəstələndiyində bədənin digər üzvləri də yuxusuzluq və atəş ilə narahat olarsa, möminləri də bir-birinə qarşı mərhəmət, məhəbbət və şəfqət göstərmə barəsində belə bir bədən bütünlüyü içərisində görərsən" – buyurur.**

Son zamanlar İslam dünyasının müxtəlif yerlərində fəlakətlər üst-üstə yaşanmaqdadır. İslam dünyası bir tərəfdən xarici hücum və təhdidlərə məruz qalarkən, digər tərəfdən də öz içində bitməz, tükənməz siyasi və iqtisadi mübarizələrin gətirib çıxardığı qan, gözyaşı və fəryadla sarsılmaqdadır. Bu fürsətdən istifadə edən Qərb ölkələri gedən qarşıdurmaları daha da alovlandıraraq, qardaşı qardaşa qırdırıb neft, qaz və digər mədən yataqlarının üstünə çökürlər. Elə onların yetişdirib müsəlmanların arasına yerləşdirdikləri bəzi şəxslər də İslam adına çıxışlar edərək, ehtirasları uğruna müsəlmanlara zülm etməkdədirlər. Halbuki, bir insanın qətlini bütün insanlığın qətli sayan bir dinin mənsublarının şiddət, qarşıdurma, cinayət kimi hadisələrlə anılması nə qədər də ağrıvericidir. Əlbəttə, bu günlər də bir gün son tapacaq. Yetər ki, zalımlara kömək etməyək, səssizliyimizlə zalımın zülmünə dəstək olmayaq.

Unutmayaq ki, zülmə səssiz qalaraq zalıma dəstək olmaq müsəlman əxlaqına əsla uyğun düşməz. Peyğəmbərimiz (s.ə.s) belə hərəkət edənləri bu hədisi şərifləriylə xəbərdar etmişdir: "Zülmə dəstək olan kimsə, şübhəsiz Allahın qəzəbinə uğrayar." Başqa bir hədisində isə "İnsanlar bir zalımı görərlər və onun zülmünə mane olmazlarsa, Allahın onları ümumi bir əzaba mübtəla etməsi qaçılmazdır" – buyurmuşdur.

Yuxarıda da vurğuladığımız kimi bəzi şəxslər özlərini müsəlman adlandıraraq, güya İslam üçün mübarizə edir və dinini qoruyurlar. Ancaq bu ad altında qətl etdikləri insan müsəlman, dağıdıb yerlə-yeksan etdikləri tikili isə İslam abidəsi və ya müsəlmanın ibadətgahıdır.

İnsan hüquqlarını qorumaq üçün yaranan təşkilatlar və sözdə demokratiya müdafiəçisi olan Qərb dünyası bu gün insanların haqlarının pozulmasına qulluq edir. Demokratiyadan, tolerantlıqdan dəm vuran Qərb dünyası nədənsə islami həyat yaşayanlara hər zaman əngəl olmağa çalışır. Baş örtüsü yasağı, məscidlərə olunan hücumlar bunun əyani bir göstəricisidir. Bundan əlavə məsum insanların qətlini həyata keçirən terror təşkilatlarına silah ötürərək insanların zülmünə seyirci olur. Və ya Afrika kimi yerlərdə yoluxucu xəstəliklərdən əzab çəkən insanların bu vəziyyətlərinə göz yumaraq onların tələf olmasını izləyir. Arakandakı faciələr heç kimin gözünə görünmür. İraqda, Suriyada, Fələstində qətl edilən uşaqlara görə görəsən bu insanlar heç xəcalət çəkirlərmi?

Belə bir vəziyyətdə bizlərə düşən vəzifə zalımın yanında deyil, daim məzlumun və zərər çəkmişin tərəfində olmaqdır. Peyğəmbər Əfəndimiz (s.ə.s): "Müsəlman, müsəlmanın qardaşıdır. Ona zülm etməz, onu köməksiz buraxmaz və onu xor görməz." – buyurmaqdadır.

Dünyanın harasında olursa olsun zülmə səssiz qalmaq, məzluma, günahsıza əl uzatmamaq, bu nəbəvi təlimdən məhrum qalmaqdır. Onu da bilməliyik ki, bu gün bu qətliamlara səssiz qalan İslam ölkələri də sabah Allah qarşısında hesab verəcəklər.

Bizə düşən vəzifə, zalımın atəşini söndürəcək suyu daşımaqdır. Məzlumun duası ilə Allah arasında pərdə olmadığını bilərək əlimizdən gəldiyi qədər maddi və mənəvi yöndən onlara dəstək olmalıyıq. Yəni onlar üçün bir ümid də biz olmalıyıq.

**Maddi imkanımız yoxdursa əl açıb: "Allahım! Bizləri insanlığını unudanlardan deyil, insanca yaşayanlardan et. Allahım! Bu anda dünyanın müxtəlif yerlərində varlıq mübarizəsi verən qardaşlarımıza rəhmətinlə, nüsrətinlə rəftar et. Allahım! Dünyanın müxtəlif yerlərində qırğınlarda həyatını itirən qardaşlarımıza rəhmət et! Yaralanan qardaşlarımıza təcili şəfalar lütf et! Bizlərə yenidən əziz bir ümmət olaraq ədalətə dəstək olmağı nəsib et" – deyə dua edək.**



## "QƏTƏR BÖHRANI"NIN AMERİKANSAYAĞI HƏLLİ

Sahib MUSTAFA
*sahib1975.sm@gmail.com*

**ABŞ prezidenti Trampın yürütdüyü xarici siyasət sırf klassik amerkansayağı siyasətdən başqa bir şey deyil. Sadəcə olaraq fərq ondan ibarətdir ki, ənənəvi amerikan siyasətini həyata keçirən şəxsin adı Reyqan, Buş, Obama yox, məhz Trampdır. Əgər onun sələfləri sözdə diplomatik etikadan kənaraçıxma hallarına yol vermirdilərsə, Tramp üçün bu qaydalar işləmir. Amerkan xalqının "milli təhlükəsizliyi" bəhanəsi ilə öz sərhədlərindən min kilometrlərlə uzaqlarda "təhlükəsizlik" axtarmağın adı bir hegemon və həyasız amerikan siyasəti ola bilər. Acınacaqlı da odur ki, ABŞ-ın əzici və dominant xarici siyasətinin təzahürü Trampın əsl simasına da sıçrayıb. Vurğulanan iradlar aşağıda sübut olunacaqdır.**

İlk olaraq son "Qətər böhranı" zamanı Trampın heç bir sübut və dəlil olmadan bu ölkəni terrorizmə dəstək verməkdə suçlaması təəccüb doğurur. Əgər, Qətərin terrorizmi dəstəklədiyi haqqında tutarlı sübutlar vardırsa, nə üçün bu faktlar dünya ictimayyətinə açıqlanmadı? Donald Tramp: "Mən Yaxın Şərqə səfər edən zamanı regionun ərəb ölkələrinin liderləri mənə dedilər ki, Qətər terrorizmə maliyə yardımları edir. Ona görə də Qətər və terrorizmlə qəti mübarizə aparmağın vaxtı gəlmişdir." ABŞ prezidentinin bu cür bəyanatı diplomatik leksikonla belə bir araya sığmır. Bu tip açıqlamaların arxasında Vaşinqtonun məkrli siyasətinin gizləndiyi heç sual da doğurmur. Çünki, "Qətər böhranı"ndan dərhal sonra Vaşinqtonun Doha ilə hərbi sahədə 12 milyard dollarliq müqavilə imzalaması buna tutarlı sübutdur. Ortaya çıxan ritorik sual da budur ki, əgər Qətər terrorizmi dəstəkləyirsə, bəs nə üçün terroru "dəstəkləyən ölkə" ilə hərbi razılaşmalar imzalanır? Üstəlik Tramp bəyanatlarının birində vurğulamışdır ki, Qətər hər zaman terrorizmə yardım etmişdir. Onda belə çıxmırmı ki, ABŞ-in özü dolayı yollarla terrorizmə dəstək verir. Əsl həqiqət ondan ibarətdir ki, Qətər kimi zəngin neft və qaz yataqlarına malik olan bir ölkəni hər zaman özünün təsiri və təzyiqi altında saxlamaqdır. Yuxarıda qeyd edilən həbi razılaşmadan dərhal sonra Ağ Ev administrasiyasının bəyanatı da acı təbəssüm doğurur: " Qətər böhranı bir ailədaxili məsələdir və Vaşinqton tərəflər arasında vasitəçilik edəcəkdir". Bundan başqa, Pentaqonun Qətərdə 2003-cü ildən bəri Yaxın Şərqdə ən böyük Hərbi Hava Qüvvələri bazası dislokasiya olunmaqdadır. Ona görə də, Doha hər zaman Vaşinqtonun təhdidini üzərində hiss edəcəkdir.

Bənzəri hadisələr İraq müharibəsi zaman da yaşanmışdır. Ağ Ev əvvəlcə Bağdadı kütləvi qırğın silahları istehsal etməkdə ittiham edir, sonra bu ölkəni qan gölünə çevirir, yarım milyondan çox mülki şəxs qətl edilir, İslam dünyası liderlərindən olan Səddam Hüseyni ərəblərin əli ilə edam etdirir və sonra da "bağışlayın, biz səhv etmişik, həqiqətən də İraqda kütləvi qırğın silahları yox imiş" bəyanatı verir. Nümunələri davam etdirsək, Liviyada baş vermiş son vətəndaş müharibəsi və Müəmmər Qəddafinin faciəvi sonluğunu da əlavə etmək olar.

**Vaşinqton Dohaya diqtəsini ABŞ-ın əlində oyuncağa çevrilmiş regionun ərəb ölkələri vasitəsi ilə həyata keçirmək niyyətindədir. Belə ki, Səudiyyə Ərəbistanı başda olmaqla Qətəri izolyasiya etmiş ölkələr adı çəkilən körfəz ölkəsindən ilk olaraq Türkiyənin hərbi bazasının bağlanmasını və İranla bütün münasibətlərin kəsilməsini tələb edirlər. Üstəlik, Qətərə yönəlmiş tələblərlə yanaşı digər şərtlərin də yerinə yetirilməsi üçün 10 gün möhlət verilir. Narahçılıq doğuran məsələlərdən biri də təhlükə çəmbərinin Türkiyəyə doğu yaxınlaşmasıdır. Moskva-Ankara-Tehran uçbucağı ABŞ-ın Yaxın Şərqdəki maraqlarına ziddir. Rusiya və İran Vaşinqtonun qarşısında duran rəqib olduğu halda Türkiyə NATO-nun üzvü və indiki durumda ABŞ-ın sözdə müttəfiqidir. Ağ Evin istəyi "böyük oyunlar" başlayanadək Türkiyənin "əl-qolunu" bağlamaq və Ankaranın İran körfəzindəki təsirini neytrallaşdırmaqdan ibarətdir. Türkiyə qardaş ölkə olması ilə yanaşı, həm də ölkəmizlə qonşudur. Bu ölkədə baş verəcək istənilən hərbi-siyasi kataklizmlər bizdən yan keçməyəcəkdir.**

## ÇEX NAZİR: QƏRBİN İMPERİALİZM TARİXİNİ ÖYRƏNƏN MÜSƏLMANLAR RADİKALLAŞIB

Qərbin imeprializm tarixini öyrənən müsəlmanlar radikallaşıb.

Bu fikir Çexiya Xarici İşlər naziri Lubomir Zaoralek "Avropanın Gələcəyi" sammitində çıxışı zamanı səsləndirilib.

Onun sözlərinə görə, müsəlmanlarla razılığa gəlmək üçün Qərbin 20 ili qalıb.

Lubomir Zaoralek çıxışında əsasən bunları vurğulayıb: "Oyanışla qarşı-qarşıyayıq. Yaxın Şərqdə həyata keçirilən imeprializm siyasətinin ağır nəticələrini indi yaşayırıq. Radikalların münasibətindən bunu aydın sezmək olur. Bu tendensiya Afrika və Asiyaya da sıçraya bilər. XIX əsrin birinci yarısından etibarən bir milyondan çox hindli ingilislər tərəfindən öldürüldü. Belçika Konqoda 10-15, ABŞ Vyetnamda 1-3 milyon insan məhv etdi. Fransa Əlcəzairdə, İtaliya Liviyada, Rusiya Zaqafqaziyada, Hollandiya isə İndoneziyada öldürdüyü müsəlmanlara görə birbaşa məsuliyyət daşıyır. Qərbin belə genişmiqyaslı vəhşilikləri unutması şokedicidir. Əgər Qərb özünə nə üçün belə nifrətlə yanaşıldığını anlamaq istəyirsə, o zaman tarixə nəzət yetirməlidir".



## DÜNYADA EVİNİ MƏCBURİ TƏRK ETMİŞ 65,6 MİLYON ADAM VAR

Dünyada 2016-cı ilin sonunda 65,6 milyondan çox qaçqın, sığınacaq istəyən və daxili köçkün qeydə alınıb. Bu, 2015-ci ildəkindən 300 min nəfər çoxdur və statistikanın həyata keçirildiyi müddət ərzində rekord göstəricidir. Bu barədə iyunun 19-da Cenevrədə BMT-nin Qaçqınların işi üzrə Ali komissarlığının məruzəsində bildirilib.

Məruzədə öz evlərini tərk etmiş üç kateqoriya insandan söhbət açılır. 22,5 milyon adam öz ölkəsindən kənarda sığınacaq tapıb və öz statusuna görə qaçqındır. 40,3 milyon nəfər daxili köçkündür, 2,8 milyon isə öz ölkəsindən kənarda sığınacaq istəyəndir.

BMT-nin qaçqınların işi üzrə Ali komissarı Filippo Qrandi deyib: "Olduqca sabit rəqəmlərin arxasında olduqca qeyri-sabit situasiya gizlənir". Onun sözlərinə görə, ötən il ərzində 7 milyon adam öz evinə qayıdıb, eyni zamanda 10 milyon yeni və "təkrar" qaçqın meydana çıxıb.

Qaçqınların ən böyük qrupu suriyalılardır. Onların sayı 5,5 milyon nəfərdir. 6,3 milyon suriyalı isə daxili köçkündür. 185 min suriyalı sığınacaq istəyəndir. Suriyada əhalinin yarıdan çoxu və ya hər min nəfərindən 650-si öz evini tərk etməyə məcbur olub.

Məcburi köçkünlərin sayına görə Kolumbiya 7,7 milyon nəfərlə ikincidir. Daha sonra siyahıda Əfqanıstan (4,7 milyon), İraq (4,2 milyon), Cənubi Sudan (3,3 milyon), Sudan (2,9 milyon) Konqo Demokratik Respublikası (2,9 milyon), Somali (2,6 milyon), Nigeriya (2,5 milyon), Ukrayna (2,1 milyon) və Yəmən (2,1 milyon) kimi dövlətlər gəlir.

## TRAMPIN SƏRVƏTİNİN MİQDARI BƏLLİ OLUB



ABŞ Prezidenti Donald Tramp sərvətinin miqdarını açıqlayıb.

Tramp son 15 ayda 529 milyon dollar qazandığını bildirib. Onunn gəlir mənbəyinin əsasını Floridada yerləşən istirahət mərkəzi və qolf klubunun təşkil etdiyi qeyd olunub. Tramp son 15 ayda bu obyektlərdən müvafiq olaraq 37 və 20 milyon dollar qazanıb.

Tramp iddia edir ki, sərvəti 1,4 milyard dollardır. Lakin onun vergidən yayınmaq üçün mülklərinə ucuz qiymət qoyduğu da yayılan xəbərlər arasındadır.

## RUSİYADA 22 MİLYON ADAM YOXSULLUQ HƏDDİNDƏ YAŞAYIR

Rusiyada 22 milyon adam və ya əhalinin 15 faizi yoxsulluq həddində yaşayır. Bununla belə ilin əvvəlindən yoxsulların sayı 2 milyon nəfər artıb. Bu barədə Hesablama Palatasının başçısı Tatyana Qolikova Federasiya Şurasının iclasında məlumat verib.

Bir qədər əvvəl Qolikova keçən ilin müvafiq dövrü ilə müqayisədə yoxsulların sayının azaldığını qeyd etmişdi. Onun sözlərinə görə, 2016-cı ilin birinci kvartalında Rusiyada yaşayış minimumundan aşağı gəlirli adamların sayı təxminən 23,5 milyon nəfər olmuşdu.

2014-cü ildən Rusiyada yoxsulluq davamlı olaraq artmaqdadır. Mart ayının sonunda Rusiya baş nazirinin müavini Olqa Qolodets bəyan etmişdi ki, təxminən beş milyon rusiyalı 7,5 min rubl (130 dollara yaxın), yəni minimal əməkhaqqından aşağı maaş alır. Bununla belə, yaşayış minimumu 2016-cı ildə 10 min rubla yaxın olub. May ayında Rusiya hökumətinin başçısı Dmitri Medvedev iki il ərzində minimal əməkhaqqının tədricən yaşayış minimumu səviyyəsinədək qalxacağı barədə məlumat verib.

## SERBİYADA BAŞ NAZİR POSTUNA QADIN GƏTİRİLDİ

Serbiya prezidenti Aleksandr Vuçiç ölkənin baş naziri postuna təyin edilmiş cinsi azlıqlara mənsub olan Ana Brnabiçə hökuməti təşkil etmək tapşırığı verib.

Baş nazir təyin edilən Ana Brnabiç ölkənin ilk qadın, o cümlədən lezbiyan hökumət başçısı olub. Bundan öncə Brnabiç dövlət idarəçiliyi üzrə nazir vəzifəsini tutub. O, açıq şəkildə öz homoseksuallığını bəyan edib.

Heç bir siyasi partiyanın üzvü olmayan Brnabiç iki həftə müddətində vəzifəsinin icrasına başlayacaq.

Ana Brnabiç ABŞ-ın Miçiqan ştatındakı Nortvud, İngiltərədəki Hull Universitetinin məzunudur.

Beləliklə, Qərb demokratiyası bəşəri dəyərlərin tapdalanması sahəsində daha bir uğura imza atıb.

## ÖLKƏMİZ ƏN TƏHLÜKƏSİZ ÖLKƏLƏR REYTİNQİNDƏ İLK ONLUĞA DÜŞÜB

Numbeo araşdırma portalının "Cinayət indeksi"nə görə 2017-ci ildə Gürcüstan 125 ölkə arasında dünyanın ən təhlükəsiz 7-ci ölkəsi olub.

Bu barədə məlumatı Gürcüstan DİN yayıb. Araşdırmaya əsasən, Gürcüstanda təhlükəsizlik səviyyəsi yüksək, cinayətlərin sayı isə aşağıdır. Numbeo-nun məlumatına görə, Gürcüstanda cinayət indeksi 20,83, təhlükəsizlik indeksi isə 79,17-dir.

Numbeo dünyanın nəhəng məlumat bazalarından biridir və istifadəçilərin məlumatları əsasında dünya miqyasında şəhərlərdə və ölkələrdə təhlükəsizlik və cinayət nöqteyi-nəzərindən durumu dəyərləndirir.

Numbeo-nun statistikasından məşhur dünya KİV, o cümlədən də BBC, Time, Forbes, The Economist, New York Times, The Telegraph, The Washington Post və digərləri tez-tez istifadə edirlər.

## GÜRCÜSTAN KİBERTƏHLÜKƏSİZLİK ÜZRƏ DÜNYA LİDERLƏRİ ARASINDADIR



Gürcüstan Beynəlxalq Elektrorabitə İttifaqının hazırladığı Qlobal Kibertəhlükəsizlik 2017 reytinqində səkkizinci yeri tutub.

Qlobal Kibertəhlükəsizlik reytinqi dövlətlərin kibertəhlükəsizliyə bağlılığını müəyyənləşdirir. İndeks 193 ölkəni birləşdirir. Ölkələr Qlobal Kibertəhlükəsizlik indeksində beş əsas göstərici üzrə qiymətləndirilirlər: qanunvericilik bazası, texniki göstəricilər, təşkilati məsələlər, keyfiyyətin yüksəldilməsi və kooperasiya.

Gürcüstanda qanunvericilik bazası 0,91 bal, texniki göstəricilər 0,77 bal, təşkilati məsələlər 0,82 bal, keyfiyyətin yüksəldilməsi 0,9 bal, kooperasiya isə 0,7 balla qiymətləndirilib.

Sənəddə deyilir: "Gürcüstan kibertəhlükəsizlik haqqında qanunvericiliyi maddi və prosedur nöqteyi-nəzərindən Budapeşt konvensiyasının qayda və prinsiplərinə uyğunlaşdırıb. İnformasiya sisteminə, məlumatlara qeyri-qanuni daxil olmaq, habelə sistemdə problem yaratmaq və sui-istifadə etmək Gürcüstan Cinayət Məcəlləsi ilə cəzalandırılır".

İndeksdə Gürcüstan bütün yaxın qonşularından öndədir.

Reytinqin birincisi Sinqapurdur. Sonrakı yerləri ABŞ və Malayziya bölüşürlər. Reytinqin sonuncusu isə Ekvatorial Qvineyadır.

## GÜRCÜSTAN AVROPANIN ƏN DİNDAR ÖLKƏSİDİR

Amerikanın Pew Research Center təşkilatının həyata keçirdiyi araşdırmanın nəticələrinə görə, Gürcüstan Mərkəzi və Şərqi Avropa ölkələri arasında ən dindar ölkədir.

Amerikan mütəxəssisləri Mərkəzi və Şərqi Avropanın 18 ölkəsində Allaha inananların sayını müəyyənləşdirmək üçün araşdırma apardılar.

Ən yüksək göstəricini Gürcüstan (99%), Ermənistan (95%) və Moldova (95%) göstərib. Ən pis göstərici ilə Macarıstan (59%), Estoniya (44%) və Çexiya (29%) reytinqin son üçlüyünü təşkil edib.

Region ölkələrinin əsasən dindar olmaları bəlli olub. Ateizmin tüğyan etdiyi keçmiş SSRİ ölkələri arasında isə Gürcüstan daha dindar ölkə olub.

Mütəxəssislərin tədqiqatında pravoslav ölkələrində katolik ölkələrinə nisbətən kilsənin roluna daha çox üstünlük verilir.

Pravoslav ölkələrində əhalinin üçdə birindən çoxu hökumətin dini dəyərlərin yayılmasına tərəfdar olmasına əmindir. Bu siyahıda Ermənistan (59%), Gürcüstan (52%) və Rumıniya (46%) liderlik edir. Dinin dövlətdən ayrı olmasını istəyən Macarıstan (28%), Xorvatiya (27%) və Polşa (25%) bu sahədə siyahının sonuncuları olub.

Mütəxəssislər regionun iki ən böyük qrupu olan pravoslav və katoliklərin bir-birinə münasibətini də araşdırıblar. Araşdırmaya görə, hər iki dini qrup Roma katolikliyi və Şərq pravoslavlığının ümumi dəyərlərə malik olduğunu söyləyib. Gürcüstanda 19%, Rusiyada isə 17% pravoslavlarla katoliklərin birləşməsini dəstəkləyib.

## GÜRCÜSTAN «SOSİAL TƏRƏQQİ İNDEKSİ 2017»NİN 53-CÜSÜ OLUB




Amerikanın Social Progress İmperative təşkilatı 2017-ci ildə dünyanın sosial cəhətdən ən mütərəqqi ölkələrini müəyyənləşdirib. Social Progress İndex araşdırmasında ekspertlər ölkəni tibb, sanitariya, həyat şəraiti, təhsil, texnologiyalara çıxış, seçki və söz azadlığı, tolerantlıq və insan hüquqlarının qorunması meyarları üzrə qiymətləndiriblər.

Reytinqdə ən yüksək bal alan Danimarka birinci olub. Ötən ilki lider Finlandiya isə reytinqin ikincisi seçilib. Üçüncü yer isə İslandiyaya verilib.

Gürcüstan 128 ölkəni əhatə edən reytinqdə 70,8 bal alaraq, 53-cü yeri tutub.

Bəzi meyarlar üzrə aşağı qiymət almasına baxmayaraq, Gürcüstan orta səviyyədən yuxarı mövqe nümayiş etdirib və regionda lider olmağı bacarıb.

Reytinqin autsayderlər üçlüyünə Mərkəzi Afrika Respublikası, Əfqanıstan və Çad daxil olub. Qiymətləndirmə BMT-nin və elmi institutların standartları, sorğuların və beynəlxalq hüquq müdafiə təşkilatlarının məlumatları əsasında keçirilib.

Müəlliflər qeyd ediblər ki, sosal tərəqqi iqtisadi inkişafla üst-üstə düşməyə bilər. Belə ki, varlı ölkələrin sakinləri də gender, dini, etnik əlamətlərə görə diskirminasiya və zorakılıqla üzləşirlər.

## MÜQAYİSƏ ÜÇÜN MÖVZU



Həmid SADIX
gamidsadikov@gmail.com

**Bu ruslar qəribə xalqdı. Hər şey haqqında elementar səviyyədə olsa belə məlumatları var. Özü də , gapları adama bayağı görünmür, adam nə isə müəyyən tam hiss edir söhbətlərində. Bunu əvvəllər hiss etsəm də, o qədər fikir verməmişdim.**

Sonuncu dəfə Qardabanda sosial araşdırma aparanda, fikir verdim, 30 respondentdən cəmi 4 nəfəri mənşəcə rus idi.

Dördü də normal cavablar verdi.

Hətta onlardan biri, səhv etmirəmsə, anadangəlmə 2-ci dərəcəli əlil idi, başqa qüsurları da var idi, buna baxmayaraq, ölkə haqqında ümumi təsəvvürü var idi, siyasi liderlərin hamısını tanıyırdı (Müqayisə üçün yazım, o gün sorğu keçiriblər, bizimkilər prezidentin, baş nazirin adını bilməyiblər). Bizimkilərə KİV desən bilməzlər, gərək deşifrə edəsə, bunun kütləvi informasiya vasitələri olduğunu deyəsən, yenə soruşurlar "o nə olan şeydi".

Amma, həmin bu qüsurlu rus mənşəli adam (üstəlik intervü verəndə içkili idi,heç ayıq görməmişəm onu) "СМИ"-nin deşifrəsini – "Средства массовой информации" olduğunu bilirdi, üstəlik bunun özünün də nə olduğunu bilirdi. Hələ bu rusun qüsurlusu, içki aludəçisi olandır. Özü də hündürdən deyirdi ki, "Mən Gürcüstanın vətənpərvəriyəm", "Mən Gürcüstanı çox sevirəm, biz Gürcüstanı çox sevirik".

Bir ara fikirləşirdim və belə bir variantın üstündə dayandım ki, yəqin rus kanalları bizimkilər baxan Azərbaycan kanalları qədər bayağı deyil, buna görə belədir, müəyyən maarifçilik funksiyası daşıyır , intellektual verilişlər, debatlar olur buna görədir.

Bəlkə bunun da payı var, ancaq belə də fikirləşirsən ki, ölkə haqqında sıravi vətəndaşın bilməli olduğu elementar şeyləri bilirlər, rus durub-oturub Gürcüstan haqqında bunu öz kanallarında verəsi deyil, belə çıxır ki, sayı çox az olan, icma potensialı olmayanlar müəyyən mənada ölkənin taleyi ilə, proseslərlə maraqlanırlar, deməli, bunlar dövlət kanallarını izləyirlər. Özü də ambisiyalı xalqdırlar, az da olsalar bizim gənclərin tələb etmədiyini onlar tələb edirlər. Yol olsun, işıqlandırma olsun, park olsun.

O dörd rusda gördüyümü (hələ onlardan biri, sorğunu ruscamı keçirək sualına – "fərqi yoxdur , istəyirsiz gürcücə keçirin", – dedi), 26 azərbaycanlının iki nəfər müəllim olanını çıxmaq şərtiylə, 24-ünün cəmində görmədim.

Bunu ört-basdır etməyin, bəzəməyin nə xeyri var? Aristotel Platonu sevirdi, amma həqiqəti daha çox sevirdi. Ümumiyyətlə, bu mövzuda susmağın adı niyə xalqa sevgi olmalıdır?

Axırda da, bir məzəli əhvalat danışım. Gələcəkdə belə şeyi dəqiq eşitməyəcəksiniz. Çoxdanın gapıdı, yəni tozlu əhvalatdı. Bibim danışıb. Deyilənə görə, 2-ci dünya müharibəsindən sonra Qardabanın Aşağı Kəpənəkçi kəndinə Nikolay adlı bir rus gəlib çıxır. Bunun babat ustalığı da varmış, qaynaq işi bilirmiş, bənnalıq edirmiş. Nənəmgildə hələ də üstünə rus hərfləriylə Nikolay yazılmış dəmir şkaf durur, onun düzəltdiyi uzun stolların üstündə bu gün də süfrə açılır (sənətin ömrünə, bax). Hə, di gəl bu yaman içən adam imiş. Evi hardan olası idi? Bir qarın çörəyə, bir çappa içkiyə, yatmaq yerinə və beş-üç manat da puldan ötəri elə bir gün onun, bir gün bunun qapısında ustalıq edib, işlədiyi evdə də qalırmış. Düpp deyənə kmi içirmiş, bir gün bibim buna deyir:

- Öyün yıxılmasın, a Niqalay, bir əz az içsən.

- A Təhlə qızı, (bibimə həmişə belə deyirmiş) deyilənə görə Səməd Vurğun içəmməsə yazammermış.

**Mən bu yazımda nə rus xalqının içki düşkünü olmasını, nə də içkinin yaxşı bir şey olmasını qabartmaq niyyətində deyiləm. Niyyətim rusların nə qədər içkiyə meylli olsalar belə elmə, kitaba, oxumağa münasibətlərini göstərməkdir. Dünya gör-götür dünyası olduğundan bizim digər xalqlardan müsbət nələrisə görüb-götürməyimiz, əxz etməyimiz ümidvaram ki, anlayışla qarşılanacaq.**

# GÜRCÜSTAN VƏTƏNDAŞLIĞI ƏLDƏ ETMİŞ ƏCNƏBİLƏRİN DURUMUNA RƏQƏMLƏRİN DİLİ İLƏ ÖTƏRİ BAXIŞ

***Tarix boyu belə olub. İnsanlar dalğa-dalğa bir yerdən başqa yerə köç edib, yer dəyişib. Bu köçlər tarixin müxtəlif kəsimlərində gah artıb, gah da azalıb. Okeanların qabarma və çəkilmələri kimi böyük və kiçik köçlər baş verib. Kimi ailəsini, əhli-əyalını da yanına salıb, arxasına baxmadan getdiyi halda, kimi də təkcə öz canını qurtararaq, başını götürüb, ayağı tutduğu qədər qaçıb. Bu miqrasiyalar nəticəsində insan dünən Vətən dediyi bir məkana arxa çevirib, yeni ayaq basdığı torpağa isə yurdum-yuvam, Vətənim deyib.***

İnsan köçlərinin baş verməsəbəbləri də fərqlidir. Bu fərqlilik müxtəlif situasiyalarda özünü fərqli şəkildə də büruzə verir. Kimi öz ölkəsində baş verən siyasi çəkişmələr ucbatından cəlayi-vətən olur, kimini iqtisadi keçimsizlik tərki-vətən edir, bir başqası dini zəmində baş verən münaqişələr səbəbindən didərgin həyatı yaşamağa məcburdur, bir başqasını isə mədəni fərqlər çöllərə salır, kimi də öz çarəsiz dərdinə çarə bulacağı ümidilə yolların ağına düşüb vətənsizə çevrilir, bir adamı müharibə hürküdüb yad ellərə göndəribsə, digərini təbiətin şıltaqlığı – vulkan, zəlzələ, qasırğa evsiz-eşiksiz qoyub və nəhayət, macəraçının biri də qonşudan qalma dala prinsipilə hərəkət edərək könüllü köçkünlük həyatını seçir. Yəni insanın öz doğma yurd-yuvasını tərk etməsi üçün min bir səbəb sadalamaq mümkündür, nəticə isə birdir. Nəticə odur ki, bu adamlar sonunda qaçqına, köçkünə çevrilib, başqa ölkələrə sığınmağa, yad ölkələrdə sığınacaq axtarmağa və sığındığı ölkənin vətəndaşlığını almağa məcburdurlar. Və təəssüflə qeyd edək ki, əksər hallarda köçkünlük, qaçqınlıq həyatını cəmiyyətin yoxsul, sosial cəhətdən müdafiəsi zəif olan təbəqəsi daha çox yaşamağa məcburdur. Bir məsələni də qeyd edək ki, öz ölkəsini bu və ya digər səbəbdən tərk edənlər ilk baxışdan cazibədar görünən, həyat şərtləri əlverişli olan, qaçqınların gəlişinə yumşaq münasibət bəsləyən ölkələrə üz tuturlar və belə ölkələrdən biri də Gürcüstandır. Ancaq bunun əksini də seçənlər var və hər keçən gün onlarla təhqir olunmuş qaçqının varlığı da bunu təsdiqləyir. BMT-nin məlumatlarına görə, artıq dünyada 2016-cı ilin sonunda 65,6 milyondan çox qaçqın, sığınacaq istəyən və daxili köçkün qeydə alınıb. Yəqin ki, onların da böyük əksəriyyəti başqa ölkələrin, o cümlədən də ölkəmizin vətəndaşlığını almaq üçün bu və ya digər yollara baş vurur.

Dünyada baş verən qlobal böhranlar nəticəsində ölkəmizə də gələnlər, ölkəmizdən də sığınacaq istəyənlər, bizdən də vətəndaşlıq umanlar yox deyil. Düzdür, yaxşı dolanışıq dalınca gedib, bu gözəl vətənə arxa çevirən vətəndaşlarımız da var. Gedənlər olduğu kimi, gələnlər də az deyil. Müxtəlif irqin daşıyıcılarının, müxtəlif etnik və dini mənsubiyyətə malik olanların ölkəmizə gəlməsi, vətəndaşlıq alması fasiləsiz bir şəkildə davam etməkdədir. Aşağıda verəcəyimiz statistik məlumatlar son beş ildə ölkəmizə gələnlərin dinamikasını canlandırmaq baxımından maraqlıdır. O, üzdən də bu məlumatları "Yeni Yol"un oxucuları ilə bölüşmək qərarına gəldik.

Alınan məlumata görə, 2012-2017-ci illərdə 32 017 nəfərə Gürcüstan vətəndaşlığı verilib. Misal üçün, ABŞ-dan 1686, Azərbaycandan 500, Almaniyadan 111, Böyük Britaniyadan 255, İspaniyadan 108, Türkiyədən 3135, İrandan 192, İsraildən 1188, Rusiyadan 19597, Yunanıstandan 1290, Ermənistandan 1122, Ukraynadan 734, Çindən 3, Qazaxıstandan 223 nəfər vətəndaşlıq alıb.

Burada nəzərəçarpan cəhət ondan ibarətdir ki, əksər hallarda Gürcüstan vətəndaşlığı bu adamlara istisna hal kimi verilib. Gürcüstan vətəndaşlığını almaq üçün gürcü dili, tarix və ölkə qanunvericiliyi üzrə gərəkən bilik nəzərə alınmadan, müraciət edən əcnəbilərə, təkrar da olsa deyək ki, vətəndaşlıq istisna hal kimi verilib. Qanunvericiliyə əsasən, Gürcüstan prezidenti istisna hal kimi digər ölkənin vətəndaşına Gürcüstan qarşısındakı xüsusi xidmətlərinə və ya bu şəxsə vətəndaşlığın verilməsi dövlət maraqlarından irəli gəldiyinə görə ölkə vətəndaşlığı verə bilər.

2012-2017-ci illərdə 76 585 əcnəbi yaşamaq üçün icazə qeydiyyatından keçib. Onlardan 1184-ü ABŞ, 7264-ü Azərbaycan, 235-i Belarus, 635-i Almaniya, 657-si Böyük Britaniya, 1655-i Misir, 2700-ü İraq, 11136-sı Türkiyə, 10630-u Hindistan, 5229-u İran, 239-u İtaliya, 1416-sı Nigeriya, 252-si Pakistan, 9515-i Rusiya, 295-i Yunanıstan , 247-si Fransa, 544-ü Suriya, 4666-sı Ermənistan, 166-sı Özbəkistan, 4278-i Ukrayna, 239-u Filippin, 690-ı Qazaxıstan, 115-i Qırğızıstan, 617-si Şri-Lanka və 8126-sı Çindən gələnlərdir.

Maraqlıdır ki, yaşamaq üçün icazənin 10 mükün variantı mövcuddur və burada onları sırası ilə verməyi məqsədəuyğun hesab edirik: a)keçmiş vətəndaş üçün; b)müvəqqəti; c)qısamüddətli; ç)daimi; d)daimi investisiya; e)daimi yaşamaq hüquqlu; ə)ailələrin birləşməsi məqsədilə; f)təhsil üçün; g)xüsusi; h)işgüzar.

Sadalananlardan ən çox d), e), ə), h) bəndləri üstünlük təşkil edir.

Burada əsasən yaşamaq üçün icazənin üç tipi – daimi, işgüzar və investisya – daha çox nəzərə çarpır. Təhsil üçün yaşamaq icazəsinə gəlincə, ondan ən çox Hindistandan gələn tələbələr yararlanırlar. Lakin burada da yalnız 30%-i təhsilin payına düşür. Qalan 70% isə daimi və investisiya tipli yaşamaq üçün icazənin payına düşür.

Beləliklə 2013-cü ildən 2017-ci ilin 24 mayınadək reysterdə 10 237 əcnəbi vətəndaşın və ikili vətəndaşlığı olmayanın torpaq sahələrinin alışı üzrə sövdələşməsi qeydiyyatdan keçib. 203 ABŞ, 5622 Rusiya, 406 Yunanıstan, 128 Qazaxıstan, 267 Misir, 171 Almaniya, 136 Türkiyə, 238 İran, 592 Ermənistan, 379 Ukrayna, 246 İraq, 243 İsrail və 631 Azərbaycan vətəndaşı Gürcüstanda torpaq sahəsi alıb.

***Bu günə qədər ölkəmizin vətəndaşlığını almış və ya almaq istəyən və ya yaşamaq üçün icazəsi olan əcnəbilərin sayı, onların ölkəmizin iqtisadi həyatında oynadaqları rolu statistik rəqəmlərin dili ilə anlatmağa çalışdıq. Əksər məqamlarda danışan rəqəmlər oldu və inanırıq ki, həmin rəqəmlər bu sahədə mövcud olan gerçəklikləri olduğu kimi ifadə edə bildi.***

Afayət AFİQ

## 11 MİN ŞAGİRD DÖVLƏT DÜŞƏRGƏLƏRİNDƏ DİNCƏLƏCƏK

Bu il 11 minə yaxın məktəbli dövlət yay düşərgələrində dincələcək. Bu barədə baş nazirin müavini, təhsil və elm naziri Aleksandr Cecelava hökumətin iyunun 22-də keçirilən iclasında məlumat verib.

Onun sözlərinə görə, şagirdləri hazırda mövcud olan yeddi düşərgə qəbul edəcək. Uşaqlar düşərgədə yeddi gün istirahət edəcəklər.

Nazir bu il yay düşərgələrinə azkomlektli məktəblərin VII, VIII və IX sinif şagirdlərinin göndəriləcəyini vurğulayıb.

"Düşərgələr təkcə dincəlmək üçün deyil, həm də öyrədicidir. Məni ekodüşərgələrin, müdafiə nazirliyi ilə, texniki peşə məktəbləri ilə birgə yaradılmış düşərgələrin olması xüsusilə sevindirir. Güman edirəm ki, bu düşərgələr gələcəkdə bütün azkomlektli məktəbləri əhatə edəcək", — Cecelava deyib.

Bu il Təhsil Nazirliyi Gürcüstanda məktəblilər üçün yeni düşərgələrin yaradılmasına dair geniş layihəyə start verib. Hökumət perspektivdə istirahət üçün düşərgələrə 100 min məktəbli göndərməyi planlaşdırır. Layihə tam şəkildə büdcədən maliyyələşəcək.

Nazirliyin məlumatına görə, ötən il yay düşərgələrinə dörd min uşaq getmişdi. Bir şagirdin düşərgədə dincəlməsi bir gündə dövlətə 60 lariyə başa gəlir.

## CAVAXİŞVİLİ ADINA TDU AVROPANIN ƏN YAXŞI UNİVERSİTETLƏRİ SİYAHISINA DÜŞÜB



Cavaxişvili adına Tbilisi Dövlət Universiteti QS World University Rankings-in ("Dünya universitetlərinin reytinqi") keçirdiyi universitetlər reytinqinin nəticələrinə görə Avropanın 400 ən yaxşı ali məktəbləri siyahısına düşüb.

TDU 301-ci yeri tutub və regionda reytinqə düşən yeganə universitet olmağı bacarıb.

"Dünya universitetlərinin reytinqi"nə Avropanın 35 ölkəsi düşüb. Reytinqi tərtib etmək üçün mütəxəssislər elmi ictimaiyyət və ekspertlər arasında 115 min sorğu aparıblar. Onlar dörd min universiteti araşdırıblar, bu universitetlərdən 980-i siyahıya daxil edilib.

Liderlər üçlüyünü Oksford, Kembric və Londonun İmperiya Kolleci təşkil edib.

Reytinqin tərtib edilməsi zamanı tədqiqatçılar 11 milyon məqaləni təhlil edib, Scopus və Elsevier-in bazasındakı 12 milyondan çox məqalədən 75 milyona yaxın sitatı nəzərdən keçiriblər.

QS World University Rankings reytinqində iştirak etmək üçün universitetlər ən azı iki geniş fənn üzrə (məsələn, incəsənət və sosial elmlər, mühəndis işi və texnologiya, hüquq və biznes) bakalavriat və diplomdan sonrakı proqramlarını təqdim etməlidirlər.

## ƏCNƏBİLƏR GÜRCÜSTANDA TİBBİ TURİZİMDƏN NECƏ İSTİFADƏ EDİRLƏR?

Gürcüstan turizm departamenti rəhbərinin sabiq müavini Qiqi Kuparadze ölkədə tibbi turizmin inkişafı haqqında, habelə əcnəbi pasiyentlərin Gürcüstanda hansı tibbi xidmətlərdən istifadə etmələri barədə məlumat verib.

Kuparadze deyib: "Hal-hazırda Gürcüstana turistlər əsasən saç əkdirmək, süni mayalanma və dişlərinin müalicəsi üçün gəlirlər. Gürcüstanda beynəlxalq tibbi turizim sferasında inkişaf edən əsas üç istiqamət bundan ibarətdir".

Son dönəmlərdə Gürcüstanda tibbi turizmin inkişafı və onun bütün sahələrinin inkişaf etdirilməsinin vacibliyi barədə tez-tez danışılır. Lakin ekspertlərin bir çoxu bu məsələyə şübhə ilə yanaşır, rəqabət səviyyəsini nəzərə alaraq Gürcüstanda bu sahədə uğur qazanmağın çətin olmasını söyləyir.

Bununla belə, tibbi turizmi inkişaf etdirmək üçün Gürcüstanın böyük imkanlara malik olmasını söyləyən ekspertlər də var.

## TRANS YAĞLARA MÜHARİBƏ ELAN OLUNUR

"Ərzaq məhsullarında trans yağların normasını müəyyənləşdirmək haqqında" Gürcüstan hökumətinin qərarı 1 avqust 2017-ci il tarixindən qüvvəyə minəcək. Bu barədə məlumatı Milli Ərzaq Agentliyinin saytı yayıb.

Agentliyin nümayəndələri artıq ərzaq məhsulları istehsalçılarını, distribütörləri və idxalçıları yeni tənzimlənmənin detalları ilə tanış ediblər.

Yeni qaydalara görə, ərzaq məhsullarında trans yağların səviyyəsi 2 qramdan artıq olmamalıdır, uşaq qida məhsullarında isə trans yağların mövcudluğu qadağan edilir.

Tələblərə əməl olunmadığı təqdirdə istehsalçı məhsulu çıxarıb, məhv etməlidir, əks halda onu 1000 lari həcmində cərimə gözləyir.

# İSLAM KONFRANSI TƏŞKİLATI VƏ AZƏRBAYCAN

**Zəminə ƏSGƏROVA**
**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent**

***Dünyanın siyasi xəritəsində İngiltərə, Fransa, Hollandiya kimi ölkələrin müstəmləkə hökmdarlığına son qoyulması 1940-70-ci illərdə Pakistan, İndoneziya, Suriya, Misir, İraq, İordaniya, Küveyt, Mərakeş, Əlcəzair, Tunis, Yəmən Ərəb Respublikası, Birləşmiş Ərəb Əmirliyi, Sudan, Banqladeş və başqa suveren müsəlman dövlətlərinin yaranmasına səbəb oldu. Bu dövlətlərdə islam güclü mövqeyə malik idi. Müstəqil müsəlman dövlətlərinin yaranması islamın bütün dünyada həlledici amillərdən birinə çevrilməsinə şərait yaratdı.***

Müxtəlif dövlətlər arasında baş vermiş münaqişələrin nizama salınmasında beynəlxalq təşkilatların rolunun artması, müəyyən məqsədlərin həyata keçirilməsində dövlətlərin birgə fəaliyyət göstərmələrinin zəruriliyi islam dövlətlərinin vahid beynəlxalq təşkilatda birləşməsi ideyasını meydana çıxartdı. 60-cı illərin axırlarında dünyada baş vermiş ictimai-siyasi proseslər bu ideyanın həyata keçirilməsi, yəni islam dövlətlərinin bir-birinə yaxınlaşması prosesi üçün zəmin yaratdı. Xüsusən Fələstin xalqının öz torpağından didərgin salınması, onların haqq səsinin pozulmuş hüquqlarının bərpası üçün kifayət etməməsi "islam həmrəyliyi"hərəkatı çərçivəsində beynəlxalq təşkilatın yaranmasına təkan verdi.

İslam dövlətlərinin beynəlxalq təşkilatda birləşmək ideyası 1969-cu ilin sentyabr ayında Mərakeşin paytaxtı Rabatda müsəlman ölkərinin dövlət və hökümət başçılarının I konfransında özünün siyasi həllini tapdı. İslam dövlətləri beynəlxalq münasibətlərdə qarşılaşdıqları bir sıra problemləri həll etmək, bu məqsədlə səyləri birləşdirmək, fikir və təcrübə mübadiləsi aparmaq, qarşılıqlı kömək göstərmək üçün vahid bir təşkilatda birləşməyi qərara aldılar. Rabat konfransında 25 müsəlman dövləti təmsil olunmuşdur. I konfransda qəbul olunmuş bəyannamədə dövlətlərin islam amili ətrafında birləşməsi nəzərdə tutulmaqla yanaşı, həm də BMT Nizamnaməsindəki müddəalara, insan hüquqlarına sadiq qalınması, beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün səylərin birləşdirilməsi də öz əksini tapmışdır.

İKT-nin Nizamnaməsində nəzərdə tutulmuş məqsədlər onun fəaliyyətinin nəyə yönəldiyini, təşkilatın istək və məramlarını müəyyən edirsə, təşkilatın Nizamnaməsində öz əksini tapmış fəaliyyət prinsipləri həmin məqsədə nail olmaq yollarını, bu sahədə fəaliyyətin hansı ümum qəbul olunmuş normalara əsaslandığını göstərir.

İKT-nin məqsədləri Nizamnamənin 2-ci maddəsinin A bəndində təsbit olunmuşdur. Həmin məqsədlər aşağıdakılardır:

Üzv dövlətlər arasında islam həmrəyliyini möhkəmləndirmək;

Elmi, mədəni, sosial, iqtisadi və digər həyati əhəmiyyətli sahələrdə üzv dövlətlər arasında əməkdaşlığı müdafiə etmək, həmçinin beynəlxalq təşkilatlarda iştirak prosesində üzv dövlətlər arasında məsləhətləşmələr keçirmək;

İrqçilik və millətçiliyin hər cür formalarının ləğvinə yardım etmək;

Beynəlxalq sülh və təhlükəsizliyin qorunması üçün ədalətlilik prinsiplərinə əsaslana zəruri tədbirlərin həyata keçirilməsində iştirak etmək;

Müqəddəs yerlərin azad olunmsı və onların bütövlüyünün saxlanması naminə fəaliyyəti əlaqələndirmək; Fələstin xalqının hüquqlarının bərpa olunmasına kömək göstərmək və onun haqq işi uğrunda mübarizəsini müdafiə etmək;

Bütün islam xalqlarının öz ləyaqətini, müstəqilliyini və milli hüquqlarını mühafizə uğrunda apardığı mübarizəni müdafiə etmək;

Üzv və digər dövlətlər arasında əməkdaşlığın və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi üçün şərait yaratmaq.



İKT-nin ali orqanı dövlət və hökumət başçılarının konfransıdır. Həmin konfrans 3 ildə bir dəfə, eləcə də "islam ümməti"nin mənafeyi tələb etdikdə toplanır. İKT-nin dövlət və hökumət başçılarının 1-ci konfransı 1969-cu ildə Rabatda (Mərakeş), 2-ci konfransı 1974-cü ildə Lahorda (Pakistan), 3-cü konfransı 1981-ci ildə Taif və Məkkədə (Səudiyyə Ərəbistanı), 4-cü konfransı 1984-cu ildə Kasablankada (Mərakeş), 5-ci konfransı 1987-ci ildə Kuveytdə, 6-cı konfransı 1991-ci ildə Dakarda (Seneqal), 7-ci konfransı 1994-cü ildə Kasablankada (Mərakeş), 8-ci konfransı 1997-ci ildə Tehranda (İran) keçirilmişdir. 23 mart 1997-ci ildə Pakistanın paytaxtı İslamabbadda İKT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının növbədənkənar müşavirəsi keçirilmişdir.

İKT-nin Zirvə toplantısında qərar və qətnamələr konsensus əsasında qəbul edilir. Yəni qərar və qətnamələrin qəbulu səsvermə keçirilmədən, iştirakçıların mövqeyinin razılaşdırılması yolu ilə həyata keçirilir. Hər hansı bir iştirakçı tərəfindən rəsmi etiraz olmadıqda qərar və qətnamə qəbul edilmiş hesab olunur. İştirakçılardan birinin qərar və qətnamənin qəbul edilməsinə etiraz etməsi iştiakçıların konsensusa gəlməməsi, yəni qərar və qətnamənin qəbul edilməməsi ilə nəticələnir.

İslam Konfransı Təşkilatı yarandığı dövrdən təkcə təşkilatın üzvü olan dövlətlərin deyil, digər müsəlman dövlətlərinin, həmçinin qeyri-müsəlman dövlətlərində yaşayan müsəlman icmalarının mənafeyinin müdafiə edilməsi, dünya müsəlmanları arasında həmrəyliyin möhkəmləndirilməsi sahəsində məqsədyönlü fəaliyyət göstərmişdir. Bu cəhətdən Azərbaycan da İKT-nin diqqətindən kənarda qalmamışdır. 1986-cı il oktyabr ayının 1-də İslam Konfransı Təşkilatının xətti ilə Bakıda "Müsəlmanlar sülh uğrunda mübarizədə" Beynəlxalq islam konfransı keçirilməsi mühüm tarixi hadisəyə çevrilmişdir. Konfransın işində dünyanın 60 ölkəsindən 600-dən artıq nümayəndə – dini işlər və vəqflər nazirləri, şeyxlər, müftilər, başqa din xadimləri, müharibə və sülh məsələləri sahəsində tədqiqat aparan müsəlman alimləri və digərləri iştirak etmişdir.

1991-ci ilin may ayında İslam Konfransı Təşkilatının və Ümumdünya İslam Cəmiyyətinin nümayəndə heyətləri Azərbaycana gəlmiş, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə ilə islamın Məkkə və Mədinədəki müqəddəs yerlərinə həccə getmək məsələlərini, əlaqələrin genişləndirilməsi, ruhani kadrlarının hazırlanması və sair məsələləri müzakirə etmişlər.

1991-ci ildə dekabr ayının 8-də Azərbaycan Respublikası İslam Konfransı Təşkilatının Nizamnaməsinin 8-ci maddəsinə müvafiq olaraq tam hüquqlu üzv kimi təşkilata qəbul olundu. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası keçmiş sovet müsəlman respublikarından birinci olaraq suveren dövlət kimi İslam Konfransı Təşkilatına üzvlüyə qəbul olunmuşdur. Azərbaycan İslam Konfransı Təşkilatının 46-cı üzvü kimi təşkilata qəbul olunmuşdur. Azərbaycan Respublikasının İslam Konfransı Təşkilatına daxil olması onun beynəlxalq hüququn subyekti kimi suveren iradəsinin ifadəsi idi. Bu, həmin beynəlxalq təşkilata daxil olan 45 dövlətin Azərbaycanın müstəqilliyini rəsmən tanıması üçün əsas oldu. Azərbaycanın suveren müstəqil dövlət kimi başqa beynəlxalq təşkilatlara daxil olmasında, dünya müsəlman dövlətləri, həmçinin digər dövlətlər tərəfindən tanınmasında, Azərbaycanla ikitərəfli diplomatik əlaqələrin yaradılmasında, Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasətinin beynəlxalq səviyyədə pislənməsində İslam Konfransı Təşkilatına üzv qəbul edilməsinin böyük əhəmiyyəti oldu.

1992-ci ilin sentyabr ayında Nyu-Yorkda BMT baş məclisinin sessiyası çərçivəsində İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin əlaqələndirmə toplantısı keçirilmişdir. Toplantının Yekun sənədinə Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar bir maddə salınmışdır. Həmin sənədin bu maddəsində münaqişə ilə əlaqədar dərin narahatlıq hissi qeyd olunmuş, beynəlxalq aləmdə qəbul edilmiş sərhədlərin toxunulmazlığı və dövlətlərin ərazi bütövlüyünə hörmət prinsiplərinin Ermənistan tərəfindən pozulması haqqında fikir öz əksini tapmışdır.

***İslam Konfransı Təşkilatı Azərbaycan üçün çətin dövrdə ona siyasi dəstək verməklə yanaşı, ölkəyə humanitar yardım göstərilməsinə də qayğı ilə yanaşmışdır. İKT-də qəbul olunmuş qətnamələrə müvafiq olaraq bu yardımlar həm İKT xətti ilə, həm də İKT-yə üzv olan dövlətlər tərəfindən göstərilmişdir. Bu cəhətdən 1993-cü ilin dekabr ayında Beynəlxalq İslam Nicat Təşkilatının MDB dövlətləri üzrə nümayəndələrinin baş direktoru Cəfər Daqistaninin Azərbaycana gəlişi xüsusi qeyd olunmalıdır. İşgüzar görüş zamanı İKT-nin qaçqınlar üçün iş yerləri açılması və onların əməyə cəlb edilməsi məqsədilə görəcəyi tədbirlər, qaçqınların doğma yerlərinə qaytarılması dövründə kəndlərin, qəsəbələrin, evlərin bərpası sahəsində fəaliyyət proqramı nəzərdən keçirilmişdir. Qeyd olunmalıdır ki, İKT 1993-cü ildə azərbaycanlı qaçqınlara 5 milyon dollar yardım göstərmiş, gələcəkdə bu yardımın həcmi 8 milyon dollara çatdırılacaqdır.***

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN DİNİ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Gürcüstanın Azərbaycandakı səfiri Teymuraz Şaraşenidzeni qəbul edib. Görüşdə tərəflər dini məsələləri müzakirə ediblər.

Görüşdə Azərbaycanda ölkənin bütün nümayəndələrinin rahat yaşamaları üçün bütün şəraitin yaradıldığı vurğulanıb. Mübariz Qurbanlı ölkədə 28 dini icmanın qeydiyyatdan keçdiyini bildirib.

Teymuraz Şaraşenidze dövlətlər arasındakı və Azərbaycanda dini münasibətlərdən razılığını ifadə edib. Səfir ikitərəfli qarşılıqlı fəaliyyətin genişləndirilməsinin vacibliyini qeyd edib.

## BAKIDA AZƏRBAYCAN, İRAN, GÜRCÜSTAN, POLŞA VƏ UKRAYNA DİMİR YOLU İDARƏLƏRİNİN RƏHBƏRLƏRİNİN GÖRÜŞÜ OLUB

İyunun 19-da Bakıda Azərbaycan, İran, Gürcüstan, Polşa və Ukrayna dəmir yolu idarələrinin rəhbərlərinin görüşü olub.

Görüşdə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, İran Dəmir Yollarının baş direktoru Səid Məhəmmədzadə, "Gürcüstan Dəmir Yolları" SC-nin sədri Mamuka Baxtadze, "Ukrayna Dəmir Yolları" SC-nin sədri Balçun Voytsex, Polşa Dövlət Dəmir Yollarının rəisi Kşiştof Maminski iştirak ediblər.

Beştərəfli görüşdə tərəflər "Cənub-Qərb" nəqliyyat marşurutunun üstünlükləri, bu marşurut vasitəsilə daşınmaların həyata keçirilməsi, onun inkişaf perspektivləri və digər məsələləri müzakirə ediblər.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

30 iyun 2017-cı il
№012 (50)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## AZƏRBAYCAN TEATRI TBİLİSİDƏ QASTROLDA OLUB



Tbilisiyə qastrolu çərçivəsində Azərbaycanın “ADO Teatr-Kollektiv” teatrı gürcü ictimaiyyətinə öz repertuarından iki performans, habelə iki qısa küçə tamaşası təqdim edib.

İyunun 23-də teatr Rustaveli prospektində iki küçə performansı – “Hamam” və “Qadın səsi” tamaşalarını oynayıb.

“ADO Teatr-Kollektiv” teatrı iyunun 24-də sözsüz ifa olunan “Qott”, iyunun 25-də isə yenə sözsüz “Stop” tamaşalarını nümayiş etdirib.

“ADO Teatr-Kollektiv” teatrı Azərbaycanın ilk müstəqil teatrıdır. Teatrın əsası 2013-cü ildə rejissor Elmin Bədəlov tərəfindən qoyulub.

Əvvəl kollektiv “ODA Teatrı” adlanırdı və Azərbaycan dilində çağdaş tamaşalar qoyurdu. 2015-ci ildə teatr yeni ad alaraq, diqqəti əsasən mətni və sözləri olmayan alternativ performanslar sərgiləməyə yönəldib.

“ADO Teatr-Kollektiv” ifaçılıq sənəti sahəsində klassik tamaşa və praktika standartlarını dağıtmağa cəhd edir.

Teatr Azərbaycanda və xaricdə qastrollarda olur. 2015-ci ildə Fransanın Oriyak şəhərində keçirilən beynəlxalq küçə teatrları festivalının, İranda “Təbrizim”, 2016-cı ildə isə Tbilisidə küçə teatr festivalının iştirakçısı olub.

## “İKİ YAD ADAM” FİLMİNİN TBİLİSİDƏ NÜMAYİŞİ KEÇİRİLİB

Paytaxt Tbilisidə Socar Georgia şirkətinin dəstəyi ilə görkəmli yazar Mir Cəlal Paşayevin “Kəmtərovlar ailəsi” hekayəsinin motivləri əsasında çəkilən “İki yad adam” filminin nümayişi baş tutub. Film tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Filmin nümayişindən sonra Socar Georgia-nın rəhbəri Mahir Məmmədov, eləcə də səfərdə iştirak edən filmin yaradıcı qrupunun üzvləri, layihə rəhbəri Hüseyn Cavadzadə və baş rolun ifaçısı Duyğu Dəvəli çıxış ediblər.

Qeyd edək ki “İki yad adam” filmi mart ayında ilk dəfə Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilən “Grand Asian” Film Festivalda nümayiş olunub və “Ən Yaxşı Sosial Film” nominasiyasında qalib olub. Filmin Bakıda ilk nümayişi Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət komitəsinin dəstəyi ilə “Addım”ın gerçəkləşdirəcəyi Gənc Ailələrinin 1-ci forumunun bağlanış mərasimində baş tutacaq.




## SOYUQ DUŞDAN MÜTƏMADİ İSTİFADƏNİN FAYDALARI

Soyuq sudan istifadəyə əsaslanAN terapiya şişləri götürməyə, iştahsızlığı, qəbizliyi aradan qaldırmağa qadirdir. Soyuq duşun qəbul olunması orqanizmin immun sistemini möhkəmləndirir.

Soyuq sudan istifadəyə əsaslanan terapiya yeni bir şey deyil. Belə ki, saunadan çıxan finlər soyuq gölə və ya vannaya tullanırlar, ruslar qışda buzlu suya baş vururlar, romalılar isə həyat enerjilərini yüksəltmək üçün öz hamam ayinlərini soyuq vanna qəbul etməklə tamamlayırdılar.

Soyuğun yaratdığı kiçik stress T-limfositlərin və NK hüceyrələrin sayının artmasını stimullaşdırır və onların fəallığını artırır. Tədqiqatlar aydınlaşdırıb ki, soyuq havada məşq etmək leykosit, qranulasit və monositlərin reaksiyasını yüksəldir.

Trombozlar üzrə ixtisaslaşmış London elmi tədqiqat institutunun yaradacısı, professor Vicay Kakkar qeyd edib ki, soyuq su bədənin isinməsi üçün gərəkli olan metabolizmin və qan dövranının səviyyəsinin yüksəlməsinə yardım edir. Metabolizmin səviyyəsinin yüksəlməsi isə insan bədənində dövr edən leykositlərin sayının artmasını şərtləndirir.

Alman alimlərinin araşdırması isə gündəlik iki dəqiqə soyuq duş qəbul etmənin soyuqdəymənin sayının azalmasına gətirib çıxardığını və isti duşa nisbətən hərarəti daha çox yüksəltdiyini təsdiqləyib.

Bu sadə üsulun faydasını görmək istəyirsinizsə, duşda olduğunuz müddətdə suyun hərarətini tədricən azaldın. Su prosedurunu iki dəqiqəlik buzlu duşla tamamlayın. Ağır işdən sonra ayaqlarınız üçün buzlu vanna da edə bilərsiniz. Əgər ayaqlarınızı belə vannada 10-15 saniyə saxlaya bilərsinizsə, öz immun sisteminizi möhkəmlədərsiniz.

## NATİONAL GEOGRAPHİC GÜRCÜSTANA XÜSUSİ NÖMRƏ HƏSR EDİB



National Geographic nəşri Gürcüstana dair 120 səhifədən ibarət xüsusi buraxılış çap edib. Jurnalın bu sayı turistlər üçün nəzərdə tutulduğundan cib formatında nəşr olunub. İngilis dilində çap edilən xüsusi buraxılışda bu Cənubi Qafqaz ölkəsi barədə geniş məlumat verilir.

Layihə Gürcüstan İqtisadiyyat Nazirliyi və Milli Turizm İdarəsinin təşəbbüsü ilə həyata keçirilib. Dövlət nümayəndələri bu vasitə ilə bütün dünyaya Gürcüstanın mədəni irsi haqqında məlumat verməyi düşünürlər.

Xüsusi buraxılışın baş redaktoru Levan Butxuzidir.

Dərginin təqdimatı Gürcüstan Milli Muzeyinin həyətində keçirilib. Təqdimata turizm agentliklərinin, müxtəlif ölkə səfirliklərinin nümayəndələri və jurnalistlər toplaşıblar. Layihə müəlliflərinin fikrincə, National Geographic -in xüsusi buraxılışı dünyanın nəhəng otellər şəbəkəsində yayılmalıdır.

Jurnalın bu sayı məhdud tirajla, cəmi 35 min nüsxə çap edilib.

Milli Turizm İdarəsinin başçısı Georgi Çoqovadze ölkəni irəli aparmaq üçün dünyanın aparıcı nəşrləri ilə mütamadi olaraq əməkdaşlıq etdiklərini vurğulayıb.

## TBİLİSİ DÜNYANIN ƏN UCUZ ŞƏHƏRLƏRİ SIRASINDADIR



Beynəlxalq konsaltinq şirkəti olan “Mercer”in tərtib etdiyi “Cost of Living Survey 2017” adlı reytinqə əsasən Tbilisi dünyanın ucuz şəhərlərindən biridir. Reytinqə 5 qitədə yerləşən 209 şəhər daxil edilib.

Reytinqin tərtibi zamanı təxminən 200 komponentin qiyməti araşdırılıb. Onlar arasında yaşayış, o cümlədən mənzil, nəqliyyat, qida, geyim, ev əşyaları, əyləncə və s. var. Oriyentir qismində Nyu-York şəhəri (digərləri bu şəhərlə müqayisə olunub) götürülüb.

Ən bahalı şəhər adını Anqolanın paytaxtı Luanda qazanıb. Onun ardınca Honkonq, Tokio, Surix və Sinqapur gəlir. İlk onluğa həmçinin Seul, Cenevrə, Şanxay, Nyu-York və Bern daxildir.

Moskva reytinqin 14-cü pilləsində qərarlaşdığı halda, Sankt-Peterburq 36-cıdır.

209 ölkə arasında Bakı 182-ci, Belarusun paytaxtı Minsk 200-cü, Tbilisi isə 204-cü olub. Ukraynanın paytaxtı Kiyev yalnız 163-cü yerlə kifayətlənib.

Ən ucuz şəhərlər isə Afrikanın Blantayr və Vindhuk, Makedoniyanın paytaxtı Skopye, Qırğızıstanın paytaxtı Bişkək seçilib.

Qeyd edək ki, dünyanın ən iri transmilli şirkətləri öz fəaliyyətində “Mercer”in reytinqlərindən və araşdırmalarından istifadə edir.

## ƏLİŞİR USMANOV PULLARINI SADƏ ÖZBƏKLƏRƏ VERMƏYƏ HAZIRDIR



Rusiyalı sahibkar, Özbəkistan əsilli Əlişir Usmanov ən yaxşı startapa start verildiyini elan edib.

Bu barədə o, özünün VKontakte-dəki rəsmi səhifəsində məlumat verib.

Milyarder özünün müxalifətçi Aleksey Navalnı ilə mübahisəsinə dair zarafat müsabiqəsinin başa çatdığını vurğulayıb.

Usmanov VKontakte-dəki səhifəsindən “yeni təşəbbüsləri” dəstəkləmək üçün meydança kimi istifadə etmək niyyətindədir.

Usmanov bildirib: “Bütün arzulayanlar öz layihələrini baxılmaq üçün ictimai müzakirələrə göndərə bilərlər. Ən yaxşılar ayın nəticələrinə görə milyon rubl alacaqlar. İlin yekunlarına görə ən diqqətəlayiq layihənin müəllifləri investisiya imkanlarının müzakirəsinə dəvət olunacaqlar”.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”

Redaktor: Afiq Muxtaroğlu
Yayım Direktoru: Hacı Bəkiroğlu
Grafik dizayn: Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 595 92 25 70
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.